“Dövlət Mülki Aviasiya Agentliyi”
publik hüquqi şəxsinin 2025-ci il 20 noyabr tarixli 3-27-102/3-02-23/2025 nömrəli əmri ilə təsdiq edilmişdir.

HELİKOPTER MEYDANÇALARI VƏ HELİDEKLƏRİN SERTİFİKATLAŞDIRILMASI ÜZRƏ TƏLİMAT

“Dövlət Mülki Aviasiya Agentliyi”

publik hüquqi şəxsi

Sənəd № M-AGA-001

Nəşr tarixi: 20.NOYABR.2025

Nəşr № 01

Bakı

AZƏRBAYCAN RESPUBLİKASI
RƏQƏMSAL İNKİŞAF VƏ NƏQLİYYAT NAZİRLİYİ
DÖVLƏT MÜLKİ AVİASİYA AGENTLİYİ
PUBLİK HÜQUQİ ŞƏXS

ƏMR

№ 3-27-102/3-02-23/2025

Bakı şəhəri «20» noyabr 2025 il

"Helikopter meydançaları və helideklərin sertifikatlaşdırılması üzrə Təlimat"ın təsdiq edilməsi haqqında

Helikopter meydançalarının, o cümlədən helideklərin istismara yararlılıq və təhlükəsizlik tələblərinə uyğun olaraq sertifikatlaşdırılması, habelə onların dövlət qeydiyyatına alınması ilə bağlı məsələlərin tənzimlənməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 21 fevral tarixli 341 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət Mülki Aviasiya Agentliyi" publik hüquqi şəxsin Nizamnaməsi"nin 3.1.9-cu və 4.10.6-cı yarımbəndlərini rəhbər tutaraq

əmr edirəm:

1. "Helikopter meydançaları və helideklərin sertifikatlaşdırılması üzrə Təlimat" təsdiq edilsin (əlavə olunur).
2. "Dövlət Mülki Aviasiya Agentliyi" publik hüquqi şəxsinin (bundan sonra – DMAA) və mülki aviasiya subyektlərinin aidiyyəti mütəxəssislərinin bu Təlimatla tanış edilməsi və icrası təmin edilsin.
3. Təlimatın DMAA-nın rəsmi internet saytında yerləşdirilməsi təmin edilsin.
4. İnzibati idarəetmə departamenti bu əmrin surətinin aidiyyəti üzrə çatdırılmasını təmin etsin.
5. Əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

İdarə Heyəti sədrinin müavini,
İdarə Heyətinin sədri vəzifəsini
müvəqqəti icra edən **Bəhruz Məlikov**

0.1 Sənədə nəzarət və idarəedilmə

0.2 Mündəricat

0.1 Sənədə nəzarət və idarəedilmə 1
0.2 Mündəricat 1
0.3 Səhifələrin siyahısı 3
0.4 Qüvvədə olan səhifələrin siyahısı 4
0.5 Düzəliş və dəyişikliklərin qeydiyyatı 5
0.6 Sənədə nəzarət və idarəedilmə 6
1 Ümumi müddəalar 1
2 Sertifikatlaşdırılma proseduru 2
3 Müraciət və ilkin qiymətləndirmə 2
4 Sübutedici sənədlərin qiymətləndirilməsi 2
5 Uyğunluq sertifikatının verilməsi və ya verilməsindən imtina 3
6 Uyğunluq sertifikatının dublikatı 4
7 Uyğunluq sertifikatına əlavələrin və dəyişikliklərin edilməsi 4
8 Uyğunluq sertifikatının qüvvədəolma müddətinin uzadılması 4
9 Uyğunluq sertifikatının sahibinin dəyişdirilməsi 5
10 Uyğunluq sertifikatının qüvvəsinin dayandırılması və ya ləğv edilməsi 5
11 Aşkar edilmiş çatışmazlıqlara görə uyğunluq sertifikatının qüvvəsinin dayandırılması və ya ləğv edilməsi 5
12 Standartlara riayət olunmasından azadolmalar 5
13 Qeydiyyata alınma və reyestrin aparılması 6
“Helikopter meydançaları və helideklərin sertifikatlaşdırılması üzrə Təlimat”a 1 nömrəli Əlavə 1
“Helikopter meydançaları və helideklərin sertifikatlaşdırılması üzrə Təlimat”a 3 nömrəli Əlavə 1
“Helikopter meydançaları və helideklərin sertifikatlaşdırılması üzrə Təlimat”a 4 nömrəli Əlavə 1

BU SƏHİFƏ QƏSDƏN BOŞ SAXLANILIB

0.3 Səhifələrin siyahısı

	Hissə 0	
Səhifə	**Qüvvəyəminmə tarixi**	**Dəyişiklik nömrəsi**
1	20.NOY.2025	00
2	20.NOY.2025	00
3	20.NOY.2025	00
4	20.NOY.2025	00
5	20.NOY.2025	00
6	20.NOY.2025	00
	Təlimat	
Səhifə	**Qüvvəyəminmə tarixi**	**Dəyişiklik nömrəsi**
1	20.NOY.2025	00
2	20.NOY.2025	00
3	20.NOY.2025	00
4	20.NOY.2025	00
5	20.NOY.2025	00
6	20.NOY.2025	00
	Əlavə 1	
Səhifə	**Qüvvəyəminmə tarixi**	**Dəyişiklik nömrəsi**
1	20.NOY.2025	00
2	20.NOY.2025	00
3	20.NOY.2025	00
4	20.NOY.2025	00
	Əlavə 2	
Səhifə	**Qüvvəyəminmə tarixi**	**Dəyişiklik nömrəsi**
1	20.NOY.2025	00
2	20.NOY.2025	00
	Əlavə 3	
Səhifə	**Qüvvəyəminmə tarixi**	**Dəyişiklik nömrəsi**
1	20.NOY.2025	00
2	20.NOY.2025	00
	Əlavə 4	
Səhifə	**Qüvvəyəminmə tarixi**	**Dəyişiklik nömrəsi**
1	20.NOY.2025	00
2	20.NOY.2025	00

0.4 Qüvvədə olan səhifələrin siyahısı

Nüsxə №	Nüsxənin tipi	Struktur bölmə	Yerləşmə
Master	**(S)**	Keyfiyyətə nəzarət sektoru	DMAA-nın kitabxanası/ Intranet
1	**(S)**	Keyfiyyətə nəzarət sektoru	Q-Pulse

(S) Soft Copy - (Elektron nüsxə)

(H) Hard Copy – (Çap olunmuş nüsxə)

Qeyd: Çap olunmuş və ya bu siyahıda göstərilməmiş elektron və çap olunmuş sənədin nüsxəsi "nəzarətsiz" hesab olunur.

0.5 Düzəliş və dəyişikliklərin qeydiyyatı

Nəşr/Dəyişiklik nömrəsi	Nəşr/Dəyişikliyin tarixi	Qüvvəyəminmə	Səbəb
Nəşr № 1	20.11.2025	20.11.2025	

Nəşr: Cari nüsxəyə qədər bütün əvvəlki düzəlişləri birləşdirən sənədin nəşri. Sənədin yeni nəşri göy rəngdə göstərilən düzəlişləri əks etdirmir. Sənədin cari nüsxəsi hər səhifənin aşağı başlığında göstərilir.

Düzəliş: Mətndə göy rəngdə yazılan və ya sənədin sağ tərəfində şaquli xətt ilə müşahidə olunan sənədin müəyyən hissəsinə edilmiş dəyişiklik. Düzəlişlərə dair əsas məlumatlar (nömrə və tarix) "Qüvvədə olan səhifələrin siyahısı"nda göstərilir və həm müvafiq səhifənin başlığında və mətnin özündə qeyd olunur.

0.6 Sənədə nəzarət və idarəedilmə

Hər hansı dəyişikliklərin edilməməsi üçün PDF faylları qorunacaq və imzalanacaq.
Bu sənədə müntəzəm olaraq yenidən baxılır və dəyişdirilir. Müvafiq işçi heyəti bütün düzəlişlərlə tanış olmalıdır.
Bu sənəd "Sənədlərə nəzarət" prosedurunun tələblərinə uyğun olaraq dəyişdiriləcək və yenidən baxılacaqdır.

1 Ümumi müddəalar

1.1. Bu Təlimat “Aviasiya haqqında” Azərbaycan Respublikası Qanununun (bundan sonra – Qanun) 14-cü maddəsinə və “Beynəlxalq Mülki Aviasiya haqqında” 1944-cü il 7 dekabr tarixli Konvensiyaya (bundan sonra – Konvensiya) və Konvensiyaya 14 nömrəli Əlavə - “Helikopter meydançaları” (Cild 2) sənədinə, Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 21 fevral tarixli 341 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət Mülki Aviasiya Agentliyi” publik hüquqi şəxsin Nizamnaməsi”nin 3.1.9-cu, 3.1.24-cü, 3.1.29-cu yarımbəndlərinə əsasən, helikopter meydançalarının, o cümlədən helideklərin istismara yararlılıq və təhlükəsizlik tələblərinə uyğun olaraq sertifikatlaşdırılması, habelə onların dövlət qeydiyyatına alınması ilə bağlı tələbləri müəyyən edir.

1.2. Sertifikatlaşdırılma proseduru “Dövlət Mülki Aviasiya Agentliyi” publik hüquqi şəxsi (bundan sonra - DMAA) tərəfindən həyata keçirilir.

1.3. Bu Təlimatda istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.3.1. helikopter meydançası - helikopterlərin enməsi, qalxması və ya səth üzərində hərəkəti üçün bütövlükdə və ya qismən istifadə edilməsi nəzərdə tutulan aerodromda, tikili və ya qurğu üzərində müəyyən edilmiş sahə;

1.3.2. helidek - neft və ya qazın hasilatı məqsədilə istifadə olunan kəşfiyyat və (və ya) istehsal qurğusu kimi sabit və ya üzən dəniz obyektində yerləşən helikopter eniş meydançası;

1.3.3. maneə - hər hansı hərəkətli və ya hərəkətsiz (müvəqqəti və ya daimi), o cümlədən mobil obyektlər, yaxud onların hissələri:

1.3.3.1. hava gəmilərinin yerüstü hərəkəti üçün nəzərdə tutulmuş məkanda yerləşdirilib;

1.3.3.2. uçuş zamanı hava gəmilərinin qorunması üçün təyin edilmiş Konvensiyaya 14 nömrəli Əlavənin 4-1-ci və 4-2-ci cədvəllərindəki səthlərin ölçülərini keçən;

1.3.3.3. aeronaviqasiya üçün təhlükə kimi qiymətləndirilmiş Konvensiyaya 14 nömrəli Əlavənin 4-1-ci və 4-2-ci cədvəllərindəki səthlərin ölçülərindən kənarda olan.

1.4. Bu Təlimatda istifadə olunan digər anlayışlar Qanunla, Azərbaycan Respublikasının digər normativ hüquqi aktları və Konvensiyaya 14 nömrəli Əlavə - “Helikopter meydançaları” (Cild 2) ilə müəyyənləşdirilmiş mənaları ifadə edir.

1.5. Bu Təlimatla tənzimlənməyən məsələlər Qanuna, Konvensiyaya və Konvensiyaya 14 nömrəli Əlavə - “Helikopter meydançaları” (Cild 2) ilə müəyyən edilmiş Beynəlxalq Mülki Aviasiya Təşkilatının beynəlxalq standartlarına və tövsiyə olunan təcrübəsinə, “Doc 9261, Helikopter meydançalarına dair Təlimat”a, “Doc 9774, aerodromların sertifikatlaşdırılması üzrə Təlimat”a, “Doc 9981, aerodromlarda aeronaviqasiya xidmətləri üzrə Prosedurlar”a, o cümlədən Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 8 may tarixli 151 nömrəli Qərarı ilə təsdiq edilmiş “Helikopter meydançalarının layihələndirilməsinə, tikintisinə və texniki göstəricilərinə dair digər Tələblər”ə uyğun olaraq həyata keçirilir.

1.6. DMAA-da aidiyyəti üzrə müraciət qeydiyyata alındıqdan sonra sertifikatlaşdırma proseduru ilə bağlı bütün işlərin görülməsi DMAA-nın Aerodrom istismarçıları (AGA) və yerüstü xidmət təminatçılarına nəzarət departamenti (bundan sonra – AGA departamenti) tərəfindən həyata keçirilir.

2 Sertifikatlaşdırılma proseduru

2.1 Sertifikatlaşdırılma proseduru aşağıdakı mərhələlərdən ibarətdir:

2.1.1. müraciət və ilkin qiymətləndirmə;

2.1.2. sübutedici sənədlərin qiymətləndirilməsi;

2.1.3. helikopter meydançası (və ya helidek) vasitələrinin və avadanlıqlarının qiymətləndirilməsi;

2.1.4. uyğunluq sertifikatının verilməsi və ya verilməsindən imtina.

3 Müraciət və ilkin qiymətləndirmə

3.1. Uyğunluq sertifikatının alınması üçün şəxs bu Təlimatın 1 nömrəli əlavəsində nəzərdə tutulmuş formaya uyğun şəxsən və ya poçt rabitəsi vasitəsilə, yaxud elektron üsulla DMAA-ya müraciət edir. Ərizə DMAA tərəfindən "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 31-ci maddəsinə uyğun olaraq qəbul edilir və qeydiyyata alınır.

3.2. Helikopter meydançasına (və ya helidekə) dair aşağıdakı sübutedici sənədlər helikopter meydançasının (və ya helidekin) istismara başlanılması tarixindən ən azı 90 (doxsan) gün əvvəl DMAA tərəfindən razılaşdırılması üçün müraciətlə birlikdə təqdim edilir:

3.2.1. helikopter meydançalarının (helidekin) istismarına dair təlimat;

3.2.2. fövqəladə hallar üçün fəaliyyət planı;

3.2.3. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məbləğdə dövlət rüsumunun və Qanunun 9.2-ci maddəsinə uyğun olaraq müəyyən edilmiş məbləğdə xidmət haqqının ödənilməsini təsdiq edən sənədlər.

3.3. Sübutedici sənədlərə hər hansı əlavə və (və ya) dəyişiklik edildikdə, ərizəçi tərəfindən DMAA-ya bu barədə dərhal məlumat verilir.

3.4. Təqdim edilmiş məlumatlarda və sənədlərdə çatışmazlıqlar aşkar edildikdə, DMAA tərəfindən ərizəçiyə 5 (beş) iş günü müddətində bu barədə məlumat verilir. Ərizəçi çatışmazlıqları aradan qaldırdıqda, məlumat və sənədləri DMAA-ya təkrar təqdim etdikdən sonra müraciətə təkrar baxılır və uyğunluq sertifikatının verilməsi və ya verilməsindən imtina barədə müvafiq qərar qəbul edilir. Ərizəçi çatışmazlıqları 5 (beş) iş günü müddətində aradan qaldırmadıqda müraciət baxılmamış saxlanılır.

3.5. Müraciət DMAA tərəfindən qeydiyyata alındıqda və çatışmazlıq olmadıqda, AGA departamenti tərəfindən müraciətin qiymətləndirilməsi üçün mütəxəssislərdən ibarət ekspert qrupu yaradılır.

3.6. Müraciətin qiymətləndirilməsi zamanı ekspert qrupuna DMAA tərəfindən təcrübəli mütəxəssislər cəlb edilə bilər.

4 Sübutedici sənədlərin qiymətləndirilməsi

4.1. Sübutedici sənədlər qiymətləndirilərkən ekspert qrupu tərəfindən aşağıdakılar yoxlanılır:

4.1.1. sübutedici sənədlərin Azərbaycan Respublikasının normativ hüquqi aktlarının və beynəlxalq müqavilələrinin tələblərinə uyğunluğu;

4.1.2. ərizəçinin və onun aviasiya personalının helikopter meydançasının (və ya helidekin) istismarı və ona texniki xidmətin göstərilməsi üçün lazımi ixtisasa və təcrübəyə malik olması;

4.1.3. aviasiya personalının təsdiq edilmiş vəzifə təlimatlarının olması;

4.1.4. helikopter meydançası (və ya helidekin) vasitələrinin, xidmətlərin və avadanlıqların sertifikatlaşdırma tələblərinə uyğunluğu;

4.1.5. helikopter meydançasının (və ya helidekin) istismar prosedurlarına dair təlimatlarının uçuşların təhlükəsizliyini təmin etməsi.

4.2. Planlaşdırılacaq uçuşların həyata keçirilməsinin qiymətləndirilməsi zamanı helikopter meydançasının (və ya helidekin) digər helikopter meydançasına (və ya helidekə) və enmə məkanlarına yaxınlığı, məkanın xüsusiyyətləri və maneələri, istismar tələbləri, cihazlar üzrə yerinə yetirilən uçuşların mövcud sxemləri ekspert qrupu tərəfindən nəzərə alınmalıdır.

4.3. Sübutedici sənədlərin qiymətləndirilməsinin nəticələri ekspert qrupu tərəfindən qənaətbəxş hesab edilmədikdə, DMAA sertifikatlaşdırma işlərinin dayandırılması barədə ərizəçiyə 5 (beş) iş günü müddətində nöqsanların təfsilatını özündə əks etdirən yazılı formada məlumat verir. Ərizəçi məlumatı aldığı vaxtdan 5 (beş) iş günü müddətində həmin çatışmazlıqları aradan qaldırmalı və DMAA-ya təqdim etməlidir.

4.4. Sübutedici sənədlərin qiymətləndirilməsinin nəticələri qənaətbəxş hesab edildikdə, həmin gündən etibarən 5 (beş) iş günü müddətində DMAA tərəfindən keçirilməsi nəzərdə tutulmuş müfəttiş yoxlamasının tarixləri və sahələri barədə ərizəçiyə məlumat verilir.

5 Uyğunluq sertifikatının verilməsi və ya verilməsindən imtina

5.1. Ekspert qrupu tərəfindən təqdim edilən yoxlamanın nəticələri əsasında DMAA tərəfindən uyğunluq sertifikatının verilməsi və ya verilməsindən imtina barədə qərar qəbul edilir.

5.2. Aşağıdakı əsaslardan biri nəzərə alınmaqla, DMAA tərəfindən 5 (beş) iş günü müddətində sertifikatlaşdırılmanın yekun nəticələri rəsmiləşdirilir:

5.2.1. yoxlama zamanı uçuşların təhlükəsizliyinə və aviasiya təhlükəsizliyinə ciddi təhdid yaradan çatışmazlıqlar olduqda - uyğunluq sertifikatının verilməsindən imtina;

5.2.2. yoxlama zamanı uçuşların təhlükəsizliyinə ciddi təhdid yaradan çatışmazlıqlar olmadıqda - uyğunluq sertifikatının verilməsi;

5.2.3. yoxlama zamanı uçuşların təhlükəsizliyinə təhdid yaratmayan çatışmazlıqlar olduqda - uyğunluq sertifikatının məhdudiyyətlər tətbiq etmək şərtilə verilməsi.

5.3. Bu Təlimatın 2 nömrəli əlavəsi ilə forması müəyyən edilmiş Tədbirlər planında yoxlama zamanı aşkar edilmiş nöqsanlar qeyd olunmalı, ərizəçi tərəfindən hər bir nöqsana münasibətdə aradan qaldırılma müddətləri və məsul şəxslər müəyyən edilməlidir.

5.4. Tədbirlər planı ekspert qrupu tərəfindən qiymətləndirilir və onun qəbul edilib-edilməməsi barədə 5 (beş) iş günü müddətində DMAA-ya məlumat verilir.

5.5. Tədbirlər planı ekspert qrupu tərəfindən qəbul edilmədikdə, DMAA səbəblər göstərilməklə ərizəçiyə 5 (beş) iş günü müddətində bu barədə məlumat verir. Ərizəçi tərəfindən 5 (beş) iş günü müddətində tədbirlər planında olan çatışmazlıqlar aradan qaldırılmalı və yenidən DMAA-ya göndərilməlidir. Çatışmazlıqlar aradan qaldırıldığı halda ekspert qrupu tərəfindən tədbirlər planı qəbul edilir və bu barədə DMAA-ya məlumat verilir.

5.6. DMAA sertifikatlaşdırılmış helikopter meydançasına (və ya helidekə) nəzarəti həyata keçirir və müfəttiş yoxlamaları aparır.

5.7. Ərizəçi tərəfindən tərtib olunan tədbirlər planının DMAA-ya təqdim edilməsindən və bu planın ekspert qrupu tərəfindən qəbul olunmasından sonra uyğunluq sertifikatı rəsmiləşdirilir. Rəsmiləşdirmə zamanı ekspert qrupunun məhdudiyyətlərlə bağlı rəyi nəzərə alınır.

5.8. Qiymətləndirmənin yekun nəticəsi qənaətbəxş hesab edilmədikdə, DMAA tərəfindən 10 (on) gün müddətində ərizəçiyə səbəbləri əsaslandırılmaqla uyğunluq sertifikatının verilməsindən imtina ilə bağlı yazılı məlumat verilir.

5.9. Uyğunluq sertifikatı DMAA tərəfindən bu Təlimatın 3 nömrəli əlavəsində nəzərdə tutulmuş nümunəvi formada müraciətin predmetinə uyğun olaraq helikopter meydançası və ya helidekə verilir.

5.10. Helikopter meydançasına (və ya helidekə) verilmiş uyğunluq sertifikatının qüvvədəolma müddəti 1 (bir) ildir. Yoxlamalar zamanı çatışmazlıqlar aşkar edildikdə, uyğunluq sertifikatının qüvvədəolma müddəti tədbirlər planında əks olunan məlumatlar nəzərə alınmaqla DMAA tərəfindən 1 (bir) ildən az olmaqla daha qısa müddətə verilə bilər.

6 Uyğunluq sertifikatının dublikatı

Uyğunluq sertifikatı yararsız vəziyyətə düşdükdə və ya itirildikdə onun sahibinin yazılı müraciəti əsasında eyni hüquqi qüvvəyə malik dublikatı verilir. Dublikatın qüvvədəolma müddəti uyğunluq sertifikatının qüvvədəolma müddəti ilə məhdudlaşdırılır. Sertifikatın dublikatının yuxarı sağ tərəfində Azərbaycan və ingilis dillərində “Dublikat” sözü yazılır və onun verilmə tarixi qeyd edilir. Dublikat səlahiyyətli şəxs tərəfindən imzalanır və DMAA-nın möhürü ilə təsdiq edilir. Dublikatın aşağı hissəsində onu imzalamış səlahiyyətli şəxsin soyadı, adı, atasının adı və vəzifəsi qeyd olunur.

7 Uyğunluq sertifikatına əlavələrin və dəyişikliklərin edilməsi

7.1. Uyğunluq sertifikatına əlavələrin edilməsi üçün DMAA-ya bu Təlimatın 1 nömrəli əlavəsində nəzərdə tutulmuş formaya uyğun ərizə və ediləcək əlavələrlə bağlı sübutedici sənədlər, uyğunluq sertifikatında dəyişikliklər edilməsi üçün isə müvafiq dəyişikliklərə dair sübutedici sənədlər təqdim olunur.

7.2. Aşağıdakı hallarda DMAA tərəfindən helikopter meydançasının (və ya helidekin) uyğunluq sertifikatına əlavələr edilir:

7.2.1. istifadə vaxtında və ya istismarında dəyişiklik olduqda;

7.2.2. hüdudlarında dəyişiklik olduqda;

7.2.3. əlavələrin edilməsi ilə bağlı yazılı müraciət olduqda.

7.3. Aşağıdakı hallarda DMAA tərəfindən uyğunluq sertifikatında dəyişikliklər edilir:

7.3.1. dəyişikliklər sertifikatda qeyd edilmiş fəaliyyət sahələri üzrə işlərin təşkilinə və təmin edilməsinə mənfi təsir etmədikdə;

7.3.2. uyğunluq sertifikatında səhv aşkar edildikdə;

7.3.3. dəyişikliklər edilməsi ilə bağlı yazılı müraciət olduqda.

7.4. Ekspert qrupu əlavələr və dəyişikliklərlə bağlı zəruri olan digər sənədləri ərizəçidən tələb edə bilər.

7.5. DMAA ərizəçi tərəfindən təqdim edilmiş müraciətə 30 (otuz) iş günü müddətində baxır. Ərizəyə baxıldıqdan və yoxlama həyata keçirildikdən sonra DMAA tərəfindən ekspert qrupunun rəyi əsasında uyğunluq sertifikatına əlavələrin edilməsi ilə bağlı qərar qəbul edilir.

7.6. Uyğunluq sertifikatına edilmiş əlavə və dəyişikliklər DMAA tərəfindən rəsmiləşdirilməklə yenisi ilə əvəz edilir və əvvəlki sertifikat DMAA-ya qaytarılır.

7.7. Müvafiq əlavələr və dəyişikliklər edilmiş uyğunluq sertifikatının qüvvəsi mövcud uyğunluq sertifikatının qüvvədəolma müddəti ilə məhdudlaşır.

8 Uyğunluq sertifikatının qüvvədəolma müddətinin uzadılması

8.1. Uyğunluq sertifikatının qüvvədəolma müddətinin uzadılması sertifikat sahibinin müraciəti əsasında bu Təlimatın 3-cü hissəsinə uyğun olaraq DMAA tərəfindən uyğunluq sertifikatının yenidən rəsmiləşdirilməsi qaydasında həyata keçirilir.

8.2. Uyğunluq sertifikatının qüvvədəolma müddətinin uzadılması üçün uyğunluq sertifikatının sahibi tərəfindən uyğunluq sertifikatının qüvvədəolma müddətinin başa çatmasına ən azı 60 (altmış) gün qalmış, lakin 90 (doxsan) gündən çox olmamaq şərtilə bu Təlimatın 1 nömrəli əlavəsində nəzərdə tutulmuş formaya uyğun ərizə və bu Təlimatın 3.2-ci bəndində müəyyən edilmiş sənədlərlə birlikdə DMAA-ya müraciət edilir. Uyğunluq sertifikatının qüvvədəolma müddəti başa

çatdıqdan sonra yeni sertifikat alınanadək istismarçının fəaliyyətinə yol verilmir.

9 Uyğunluq sertifikatının sahibinin dəyişdirilməsi

9.1. Uyğunluq sertifikatının digər şəxsə ötürülməsinə yol verilmir.

9.2. Uyğunluq sertifikatının sahibi ən azı 60 (altmış) iş günü əvvəl helikopter meydançasının (və ya helidekin) istismarını onu digər istismarçıya ötürmək məqsədilə istismarın dayandırılması tarixi qeyd olunmaqla DMAA-ya ərizə ilə müraciət edir.

9.3. Uyğunluq sertifikatının yeni sahibi bu Təlimatın tələblərinə uyğun olmadıqda, DMAA tərəfindən müraciətlə bağlı imtina barədə qərar qəbul edilir və həmin qərar 3 (üç) iş günü müddətində ərizəçiyə təqdim edilir.

10 Uyğunluq sertifikatının qüvvəsinin dayandırılması və ya ləğv edilməsi

10.1. Uyğunluq sertifikatının qüvvəsininin dayandırılması və ya ləğv edilməsi ilə bağlı müraciətə 15 (on beş), əlavə öyrənilmə və yoxlanılma tələb edildikdə isə 30 (otuz) iş günü müddətində baxılır.

10.2. Uyğunluq sertifikatının qüvvəsinin dayandırılması və ya ləğv edilməsi barədə qəbul edilmiş qərar 3 (üç) gün müddətində ərizəçiyə təqdim edilir.

10.3. Uyğunluq sertifikatı ləğv edildikdə ərizəçi ləğv edilmiş uyğunluq sertifikatını 3 (üç) gün müddətində DMAA-ya qaytarmalıdır.

11 Aşkar edilmiş çatışmazlıqlara görə uyğunluq sertifikatının qüvvəsinin dayandırılması və ya ləğv edilməsi

11.1. Bu Təlimatın tələblərinin pozulması halları aşkar edildikdə, DMAA tərəfindən uyğunluq sertifikatı ləğv edilir və ya qüvvəsi dayandırılır.

11.2. Uyğunluq sertifikatının ləğv edilməsi və ya qüvvəsinin dayandırılması barədə qərar DMAA tərəfindən qəbul edilir.

11.3. DMAA uyğunluq sertifikatının qüvvəsini dayandırmazdan və ya onu ləğv etməzdən əvvəl uyğunluq sertifikatına malik olan istismarçıya sertifikatın qüvvəsinin dayandırılması və ya əsasları göstərilməklə onun ləğv edilməsi barədə bu Təlimatın tələblərini pozan halların dairəsi müəyyən edildikdən sonra 5 (beş) gün müddətində bildiriş göndərir.

11.4. Uyğunluq sertifikatının qüvvəsinin dayandırılması barədə qərar qəbul edildikdə, DMAA tərəfindən istismarçıya bildiriş göndərilir və dayandırılmaya səbəb olmuş halların aradan qaldırılması üçün ağlabatan müddət təyin edilir. Həmin müddət ərzində istismarçı tərəfindən mövcud çatışmazlıqlar aradan qaldırılmadıqda uyğunluq sertifikatı DMAA tərəfindən ləğv olunur.

11.5. Uyğunluq sertifikatının qüvvəsinin dayandırılması barədə bildirişi aldığı andan etibarən uyğunluq sertifikatının sahibi aşkar edilmiş çatışmazlıqların aradan qaldırılması üçün lazımi tədbirləri dərhal həyata keçirməli və bu barədə xidmət göstərdiyi subyektlərə məlumat verməlidir.

11.6. Qüvvəsi müvəqqəti dayandırılmış və ya ləğv edilmiş uyğunluq sertifikatı 3 (üç) gün müddətində DMAA-ya təhvil verilir.

11.7. Qüvvəsi müvəqqəti dayandırılmış uyğunluq sertifikatının etibarlılığı aşkar edilmiş pozuntuların aradan qaldırılmasından sonra bərpa edilir.

11.8. Uyğunluq sertifikatı ləğv edilmiş şəxs bu Təlimatın 3-cü hissəsinə uyğun olaraq sertifikatın ləğv edildiyi tarixdən 3 (üç) ay sonra uyğunluq sertifikatının yenidən rəsmiləşdirilməsi üçün müraciət etmək hüququna malikdir.

12 Standartlara riayət olunmasından azadolmalar

12.1. Helikopter meydançasına (və ya helidekə) dair beynəlxalq standart və tövsiyə olunan təcrübəyə riayət edilmədikdə, uyğunluq sertifikatının sahibi beynəlxalq standart və tövsiyə olunan

təcrübəyə riayət etməkdən azad olmaq üçün bu Təlimatın 4 nömrəli əlavəsində nəzərdə tutulmuş formada DMAA-ya müraciət edir. Bu müraciətə aeronaviqasiya tədqiqatları və ya risk qiymətləndirməsi hesabatları, həmçinin mövcud beynəlxalq standartlara və tövsiyə olunan təcrübəyə riayət edilə biləcəyinə dair müvafiq zaman barədə məlumat əlavə edilir.

12.2. Helikopter meydançasının (və ya helidekin) istismarçısının bu Təlimatın 12.1-ci bəndində nəzərdə tutulmuş azadolma barədə müraciət AGA departamenti tərəfindən yaradılmış ekspert qrupu tərəfindən qiymətləndirilir və yekun rəy DMAA-nın rəhbərliyinə təqdim edilir. Təqdim olunmuş rəy əsasında DMAA tərəfindən azadolma barədə qərar qəbul edilir.

12.3. Helikopter meydançasının (və ya helidekin) istismarçısı helikopter meydançasının (və ya helidekin) standartlarının tələblərindən birinə cavab verə bilmədiyi təqdirdə, DMAA bu Təlimatın 12.1-ci bəndində nəzərdə tutulmuş tədqiqatları nəzərə aldıqdan sonra həmin helikopter meydançasının (və ya helidekin) uçuşların təhlükəsizliyinin təmin edilməsi üçün xüsusi şərtləri (məhdudiyyətləri) müəyyən edir.

12.4. Helikopter meydançasının (və ya helidekin) istismarçısı bu Təlimatın 12.3-cü bəndində nəzərdə tutulmuş xüsusi şərtlərə (məhdudiyyətlərə) riayət olunmasını təmin etməlidir.

12.5. Helikopter meydançasının (və ya helidekin) istismarçısının helikopter meydançasının (və ya helidekin) standartlarından azadolma halı (halları) uyğunluq sertifikatında qeyd edilir.

12.6. Helikopter meydançasının (və ya helidekin) istismarçısı helikopter meydançasının (və ya helidekin) standartlarından azadolma halı (halları) barədə məlumatı təfsilatı ilə helikopter meydançasının (və ya helidekin) istismarına dair təlimatda qeyd etməlidir.

13 Qeydiyyata alınma və reyestrin aparılması

13.1. Uyğunluq sertifikatı almış helikopter meydançası (və ya helidek) DMAA tərəfindən dövlət qeydiyyatına alınmalıdır. Helikopter meydançası (və ya helidek) barədə məlumatlar reyestrə daxil edilir.

13.2. Sertifikatın sahibi tərəfindən DMAA-ya helikopter meydançasına (və ya helidekə) dair məlumatların dəyişməsi barədə dərhal məlumat verilməlidir.

13.3. Reyestrə aşağıdakı məlumatlar daxil edilir:

13.3.1. uyğunluq sertifikatı verilmiş mülki aviasiya subyektinin adı;

13.3.2. uyğunluq sertifikatının seriya və nömrəsi;

13.3.3. uyğunluq sertifikatının verilmə tarixi;

13.3.4. uyğunluq sertifikatının etibarlılıq müddəti.

“Helikopter meydançaları və helideklərin sertifikatlaşdırılması üzrə Təlimat”a 1 nömrəli Əlavə

Helikopter meydançası (və ya helidekə) uyğunluq sertifikatının verilməsi, ona əlavənin və (və ya) dəyişikliyin edilməsi üçün müraciət forması

Application form for the issuance of a certificate of compliance for a heliport (or helideck)

1. Müraciət edən şəxs barədə məlumat
1. Information of the applicant

Soyadı, adı və ata adı:
Surname, first name and patronymic:_____

Ünvan:
Address: _____

Poçt indeksi:
Postal code: _____

Telefon /Faks/ Elektron poçt ünvanı:
Telephone/ Fax/ Email: _____

Hüquqi şəxs olduqda:
As a legal entity:

Adı, hüquqi ünvanı:
Name, legal address: _____

VÖEN:
TIN: _____

Nümayəndənin soyadı, adı və atasının adı:
Representative’s surname, first name, and patronymic: _____

Telefon /Faks/ Elektron poçt ünvanı:
Telephone/ Fax/ Email: _____

Qeyd. Hüquqi şəxslərin dövlət reyestrindən çıxarışı, onun nümayəndəsinin səlahiyyətini və şəxsiyyətini təsdiq edən sənədlərin surətləri təqdim edilməlidir.
Note: An extract from the state register of legal entities, as well as copies of documents confirming the representative’s authority and identity, must be submitted.

2. Helikopter meydançasının (və ya helidekin) yerləşdiyi ərazi barədə məlumat
2. Information about the area where the heliport (or helideck) is located

Helikopter meydançasının (və ya helidekin) adı:
Name of the heliport (or helideck): _____

Daşınmaz obyektin təsviri:
Description of the real estate property: _____

Helikopter meydançasının (və ya helidekin) istinad nöqtəsinin coğrafi koordinatları:
Geographical coordinates of the reference point of the heliport (or helideck):

Eni: Uzunluğu:
Latitude: Longitude:
(dərəcə, dəqiqə, saniyə və WGS-84 formatında)
(in degrees, minutes and tenths of minutes and in WGS-84 format)

3.Müraciət edən şəxs ərazinin sahibidir?
3. The applicant is the owner of the area?

Bəli/Yes ☐ Xeyr/No ☐

Müraciət edən şəxs ərazinin sahibi olmadıqda, aşağıdakı sənədlər təqdim edilməlidir:
If the applicant is not the owner of the area, the following documents must be submitted:

(a) əraziyə münasibətdə hüquqlar barədə məlumat;
(a) Information regarding the rights to the area;
(b) sahibkarın adı, ünvanı və ərazinin helikopter meydançası (və ya helidek) kimi istifadə edilməsinə dair icazənin yazılı təsdiqi;
(b) The name and address of the landowner, along with written confirmation of permission to use the area as a heliport (or helideck).

***4.* Helikopter meydançası (və ya helidekin) kimi nəzərdə tutulan ərazinin istismarı ilə bağlı təfərrüatlar**
4. Details regarding the operation of an area designated as a heliport (or helideck)

İstismarın nəzərdə tutulmuş başlanma tarixi:
Planned start date of operation:
_____

İstismar saatları:
Operating hours:
_____

Ərazidə istismar edilməsi nəzərdə tutulmuş ən iri helikopterin növü:
Type of the largest helicopter intended to operate in the area:
_____

Ərazidə hərəkət sıxlığı:
Traffic density in the area: _____

5. Müntəzəm sərnişin daşımalarının yerinə yetirilməsi üçün istifadəsi edilməsi
5. Use for conducting regular passenger transportation

Bəli/Yes ☐ Xeyr/No ☐

***6.* Uyğunluq sertifikatında göstəriləcək ətraflı məlumat** ***6.* Detailed information to be indicated in the certificate of compliance**
Ərazinin adı: Name of area: _____ Ərazinin istismarçısı: Operator of the area: _____ Ünvan: Address: _____
Yuxarıda göstərilən ərazinin istismarçısının adından (səlahiyyətli nümayəndə qismində) istismara icazə verən uyğunluq sertifikatının alınması üçün müraciət edirəm. I hereby apply, on behalf of the operator of the above-mentioned area (as an authorized representative), for the issuance of a certificate of compliance permitting operation. Müraciət edən şəxsin adından aşağıdakı sahələrdə fəaliyyət göstərmək səlahiyyətinə malik olduğumu təsdiq edirəm: I confirm that I am authorized to act on behalf of the applicant in the following areas: İmza (Sign): Tarix (Date): Bəyan edən şəxsin soyadı, adı, atasının adı: Declarant's surname, first name, and patronymic:

BU SƏHİFƏ QƏSDƏN BOŞ SAXLANILIB

“Helikopter meydançaları və helideklərin sertifikatlaşdırılması üzrə Təlimat”a 2 nömrəli Əlavə

Yoxlama nəticəsində aşkar edilmiş nöqsanların aradan qaldırılmasına dair

TƏDBİRLƏR PLANI

Helikopter meydançasının (və ya helidekin) adı:

Yoxlamanın tarixi:

№	Aşkar edilmiş nöqsan	Dərəcəsi	Yaranma səbəbi	Görülməli işlər	Aradan qaldırılma müddətləri	Qabaqlayıcı tədbirlər	Aradan qaldırmasına cavabdeh şəxsin adı, soyadı, atasının adı, vəzifəsi

Tərtib etdi:

Səlahiyyətli şəxsin soyadı, adı, atasının adı, vəzifəsi, imza və tarix:

Təsdiq etdi:

Səlahiyyətli şəxsin soyadı, adı, atasının adı, vəzifəsi, imza və tarix:

Ekspert qrupunun qeydi və tədbirlər planının qəbul edilməsinə dair rəyi:

_____

İmza:
Tarix:

BU SƏHİFƏ QƏSDƏN BOŞ SAXLANILIB

“Helikopter meydançaları və helideklərin sertifikatlaşdırılması üzrə Təlimat”a 3 nömrəli Əlavə

HELİKOPTER MEYDANÇASININ İSTİSMARA YARARLILIĞINI TƏSDİQ EDƏN UYĞUNLUQ SERTİFİKATI
CERTIFICATE OF COMPLIANCE CONFIRMING THE OPERATIONAL SUITABILITY OF THE HELIPORT

AZƏRBAYCAN RESPUBLİKASI / REPUBLIC OF AZERBAIJAN

RƏQƏMSAL İNKİŞAF VƏ NƏQLİYYAT NAZİRLİYİ
MINISTRY OF DIGITAL DEVELOPMENT AND TRANSPORT
DÖVLƏT MÜLKİ AVİASİYA AGENTLİYİ
STATE CIVIL AVIATION AGENCY

UYĞUNLUQ SERTİFİKATI / CERTIFICATE OF CONFORMITY
№ HP-[XXX]

Helikopter meydançasının adı:
Name of heliport:

Helikopter meydançasının yeri:
Location of heliport:

Helikopter meydançasının istismarçısı:
Operator of heliport:

Helikopterin maksimal uçuş kütləsi (tonla):
Helicopter maximum take-off weight (MTOW) (t):

Helikopterin D-qiyməti (metrlə):
Helicopter D-value (m):

Küləyin sürəti (m/san):
Wind speed (m/s):

Qəbul edilmiş azadolmalar:
Accepted deviations:

Xüsusi şərtlər:
Special conditions:

Bununla təsdiq edilir ki, _____ helikopter meydançası “Aviasiya haqqında” Azərbaycan Respublikası Qanununa və “Beynəlxalq Mülki Aviasiya haqqında” 1944-cü il 7 dekabr tarixli Konvensiyaya (bundan sonra – Konvensiya) və Konvensiyaya 14 nömrəli Əlavə - “Helikopter meydançaları” (Cild 2) sənədinin beynəlxalq standart və tövsiyə olunan təcrübəsinə uyğundur.
This is to certify that the _____ heliport complies with the Law of the Republic of Azerbaijan “On Aviation,” the Convention on International Civil Aviation dated 7 December 1944 (hereinafter referred to as the Convention), and Annex 14 to the Convention – “Heliports” (Volume II) concerning the international standards and recommended practices.

Bu sertifikat qüvvəsi dayandırılana və ya ləğv edilənə qədər üzərində qeyd edilən qüvvədən düşmə tarixinədək etibarlıdır.
This certificate is valid until the date of expiration specified on it, unless its validity is suspended or revoked.

M.Y. / S.P.

_____
(səlahiyyətli şəxsin soyadı, adı, atasının adı, vəzifəsi və imzası/
surname, name, patronymic, position and signature of the authorized person)

Əlavə qeydlər:
Additional notes:

Verilmə tarixi / Date of issue:
Qüvvəyəminmə tarixi / Effective date:
Etibarlıdır / Valid till:

HELİDEKİN İSTİSMARA YARARLILIĞINI TƏSDİQ EDƏN UYĞUNLUQ SERTİFİKATI
CERTIFICATE OF COMPLIANCE CONFIRMING THE OPERATIONAL SUITABILITY OF THE HELIDECK

AZƏRBAYCAN RESPUBLİKASI / REPUBLIC OF AZERBAIJAN

RƏQƏMSAL İNKİŞAF VƏ NƏQLİYYAT NAZİRLİYİ
MINISTRY OF DIGITAL DEVELOPMENT AND TRANSPORT
DÖVLƏT MÜLKİ AVİASİYA AGENTLİYİ
STATE CIVIL AVIATION AGENCY

UYĞUNLUQ SERTİFİKATI / CERTIFICATE OF CONFORMITY
№ HD-[XXX]

Helidekin adı:
Name of helideck:

Helidekin istismarçısı:
Operator of helideck:

Helikopterin maksimal uçuş kütləsi (tonla):
Helicopter maximum take-off weight (MTOW) (t):

Helikopterin D-qiyməti (metrlə):
Helicopter D-value (m):

Küləyin sürəti (m/san):
Wind speed (m/s):

Qəbul edilmiş azadolmalar:
Accepted deviations:

Xüsusi şərtlər:
Special conditions:

Bununla təsdiq edilir ki, _____ helidek “Aviasiya haqqında” Azərbaycan Respublikası Qanununa və “Beynəlxalq Mülki Aviasiya haqqında” 1944-cü il 7 dekabr tarixli Konvensiyaya (bundan sonra – Konvensiya) və Konvensiyaya 14 nömrəli Əlavə - “Helikopter meydançaları” (Cild 2) sənədinin beynəlxalq standart və tövsiyə olunan təcrübəsinə uyğundur.
This is to certify that the _____ helideck complies with the Law of the Republic of Azerbaijan “On Aviation,” the Convention on International Civil Aviation dated 7 December 1944 (hereinafter referred to as the Convention), and Annex 14 to the Convention – “Heliports” (Volume II) concerning the international standards and recommended practices.

Bu sertifikat qüvvəsi dayandırılana və ya ləğv edilənə qədər üzərində qeyd edilən qüvvədən düşmə tarixinədək etibarlıdır.
This certificate is valid until the date of expiration specified on it, unless its validity is suspended or revoked.

M.Y. / S.P.

_____

(səlahiyyətli şəxsin soyadı, adı, atasının adı, vəzifəsi və imzası/
surname, name, patronymic, position and signature of the authorized person)

Əlavə qeydlər:
Additional notes:

Verilmə tarixi / Date of issue:
Qüvvəyə minmə tarixi / Effective date:
Etibarlıdır / Valid till:

"Helikopter meydançaları və helideklərin sertifikatlaşdırılması üzrə Təlimat"a 4 nömrəli Əlavə

HELİKOPTER MEYDANÇASI (VƏ YA HELİDEK) STANDARTLARINA ƏMƏL ETMƏKDƏN AZADOLMALARA DAİR MÜRACİƏT FORMASI
APPLICATION FORM FOR EXEMPTIONS FROM COMPLIANCE WITH HELİPORT (OR HELIDECK) STANDARDS

Tarix:
Date:

Helikopter meydançasının (və ya helidekin) adı:
Name of heliport (or helideck):

Helikopter meydançasının (və ya helidekin) istismarçısı:
Operator of heliport (or helideck):

Helikopter meydançasının (və ya helidekin) ünvanı:
Address of heliport (or helideck):

Helikopter meydançasının (və ya helidekin) nəzarət nöqtəsinin coğrafi koordinatları:
Geographical coordinates of the control point of the heliport (or helideck):

Uzunluq: Enlik:
Longitude: Latitude:

Helikopter meydançasının (və ya helidekin) standartına istinad maddəsi (maddələri):
Reference clause(s) of the applicable heliport (or helideck) standard:

Azadolmanın səbəbi:
Reason for exemption:

Qeyd edilən helikopter meydançası (və ya helidek) standartlarına uyğun olma tarixi, mövcud olarsa:
Date on which compliance with the specified heliport (or helideck) standards will be achieved (if applicable)

Qeydlər:
Notes:

Risk qiymətləndirməsinin surəti və (və ya) əlavə edilmiş aeronaviqasiya tədqiqatının surəti əlavə olunur:
A copy of the risk assessment and/or the attached aeronautical study is attached:

Bəli/ Yes o

Xeyr/No o

BƏYANNAMƏ:
(1) Müraciətimin qiymətləndirilməsi məqsədilə Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində "Dövlət Mülki Aviasiya Agentliyi" publik hüquqi şəxsinin (DMAA) məqbul hesab etdiyi hər hansı mənbədən müvafiq məlumatın alınmasına etiraz etmirəm. Bu müraciət formasında qeyd etdiyim və əlavə edilmiş qoşmalardakı məlumatların düzgünlüyünə səlahiyyətlərin çərçivəsində zəmanət verirəm. Eləcə də, təqdim edilməsi tələb olunan hər hansı faktı gizlətmədiyimi bəyan edirəm. Mənim tərəfindən təqdim edilən hər hansı məlumat hansısa səbəbdən yalan və ya səhv olarsa, azadolma prosesindən imtina olunacağımı qəbul edirəm.
(1) For the purpose of evaluating my application, I do not object to the public legal entity "Civil Aviation Authority" under the Ministry of Digital Development and Transport of the Republic of Azerbaijan (SCAA) obtaining relevant information from any source it deems appropriate. I guarantee, within the limits of my authority, the accuracy of the information provided in this application form and in the attached documents. I also declare that I have not concealed any facts required to be submitted. I acknowledge that if any information provided by me is found to be false or incorrect for any reason, my exemption process will be rejected.

(2) Bu müraciət formasında qeyd etdiyim və əlavə edilmiş qoşmalardakı məlumatların düzgünlüyünə səlahiyyətlərin çərçivəsində zəmanət verirəm. Eləcə də, təqdim edilməsi tələb olunan hər hansı faktı gizlətmədiyimi bəyan edirəm. Mənim tərəfindən təqdim edilən hər hansı məlumat hansısa səbəbdən yanlış və ya səhv olarsa, azadolma prosesindən diskvalifikasiya olunacağımı qəbul edirəm.

(2) I guarantee, within the limits of my authority, the accuracy of the information provided in this application form and in the attached documents. I also declare that I have not concealed any facts required to be submitted. I acknowledge that if any information provided by me is found to be false or incorrect for any reason, I will be disqualified from the exemption process.

Müraciət edənin soyadı, adı, atasının adı:
Applicant's surname, name, and patronymic:

Vəzifəsi:
Position:

İmza:
Signature:

Telefon /Faks/ Elektron poçt ünvanı:
Telephone/ Fax/ E-mail:

DMAA tərəfindən doldurulan hissə
Section to be completed by the SCAA

Yoxladı: _____
müfəttişin soyadı, adı, atasının adı, imza, tarix
Checked by: _____
Inspector's surname, given name, patronymic, signature, date

Vəzifəsi:
Position:

Telefon/ Faks/ Elektron ünvan:
Telephone / Fax / E-mail address:
Qeydlər:
Notes:
Təsdiq etdi: _____
səlahiyətli şəxsin soyadı, adı, atasının adı

Approved by: _____
full name of authorized person – surname, given name, patronymic

İmza:
Signature:

Vəzifəsi:
Position:

Telefon/Faks/ Elektron ünvan
Telephone / Fax / E-mail address:

Qeydlər:
Notes:

Tarix:
Date: